# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 72** **Bakı şəhəri, 5 fevral 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

"Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1014-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2358 nömrəli Fərmanının 8-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10-cu hissənin adına və 10.1-ci bəndə "müəssisələrində" sözündən sonra ", habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərində" sözləri əlavə edilsin.

**2.** 10.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"10.1.1. şəxsin sosial xidmət müəssisələrini, habelə ümumi təyinatlı internat tipli və internat tipli xüsusi ümumtəhsil məktəblərini tərk etməsi ilə bağlı həmin müəssisələrin arayışı;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2024.- 7 fevral, № 26.- S.8.